# «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi həyata keçirirlər.

3. Azərbaycan Respublikasının Milli Bankına tapşırılsın ki:

3.1. «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş meyarlar əsasında bankların qiymətləndirilməsi və restrukturizasiyası proseslərinin dərinləşdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirsin;

3.2. Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasında Azərbaycan Respublikasının Milli Bankını və iştirakçı bankları təmsil edəcək nümayəndələrin təyin olunması üçün müvafiq tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Milli Bankı ilə birlikdə bank sistemində maliyyə intizamının gücləndirilməsi və bank inzibatçılarının məsuliyyətinin artırılması məqsədi ilə maliyyə sanksiyalarının tətbiqi üçün qanunvericilik təkliflərini hazırlayıb 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 9 fevral 2007-ci il***

***№ 530***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (11 fevral 2007-ci il, № 30) («VES Consultancy LLC»)***